# Azərbaycanın haqq savaşı xarici mətbuatda



Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hadisələri Azərbaycandan işıqlandırarkən məni ən çox təəccübləndirən insanların qətlə yetirilməsinə və dağıntılara baxmayaraq, əhali arasında müharibəyə davamlı dəstəyin olması idi.

AZƏRTAC xəbər verir ki, bu fikir ABŞ-ın "VICE News" kanalının jurnalisti Hind Hassanın "Instagram" səhifəsindəki paylaşımında yer alıb.

Jurnalist insanların hətta öz övladlarını dəfn etdikləri zaman belə hərbi əməliyyatların dayandırılmasını istəmədiklərinin şahidi olduqlarını yazır. O qeyd edir ki, insanlar 27 ildir aparılan diplomatik danışıqların nəticəsiz qaldığını, Ermənistanın işğalı altında olan Dağlıq Qarabağdan və onu əhatə edən rayonlardan didərgin düşmüş 700 mindən çox azərbaycanlının öz ata-baba yurdlarına geri qayıtmalı olduqlarını bildirirlər.

Jurnalist Ermənistanın Gəncəyə raket hücumu zamanı həlak olmuş 10 aylıq Narının atası Timur Xaliqovun körpəsinin paltarını əlində saxladığı fotonu paylaşıb.

Həmçinin o, Gəncə ilə yanaşı, Tərtər şəhərinə də raket zərbələri nəticəsində dağılmış evlərin, qətlə yetirilmiş insanların yaxınlarının şəkillərini paylaşıb.



Misirin "Almasralyoum", "Alwasela", "Aldiplomasy", "Nİle1" və "Garbnews" informasiya portalları Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün "Twitter" hesabında şanlı ordumuzun daha 7 kəndi işğaldan azad etməsi ilə bağlı paylaşımına dair informasiyalar yayıb.

AZƏRTAC-a istinadla yayılan xəbərlərdə vurğulanıb ki, Azərbaycanın dövlət başçısı müzəffər Azərbaycan Ordusunun Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etdiyini bəyan edib.

İnformasiya portallarında yayılan xəbərlərdə qeyd edilib ki, beynəlxalq təşkilatların müraciətləri və humanitar atəşkəs razılaşmalarına rəğmən, Ermənistan silahlı qüvvələri şəhər və kəndlərə, dinc əhaliyə və mülki obyektlərə raket hücumlarını davam etdirir.



Gürcüstanın nüfuzlu report.ge və 24news.ge informasiya portalları Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dünyanın aparıcı KİV-inə müsahibələrindən materiallar yaymaqda davam edir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin müsahibələrinə istinadən yayılan materiallarda deyilir: "Bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq. Biz ərazi bütövlüyünün bərpasını, demək olar ki, 30 il idi gözləyirdik. Bildiyiniz kimi, bütün bu müddət ərzində Azərbaycan danışıqlar prosesinə ciddi şəkildə sadiq olub. Lakin əfsuslar olsun ki, bu, hər hansı əhəmiyyətli nəticə vermədi. Bundan əlavə, son bir neçə ildə Ermənistan rəhbərliyi öz bəyanatları və əməlləri, o cümlədən hərbi təxribatları ilə bizi hər zaman təhrik edirdi. Sonuncusu sentyabrın 27-də baş verdi. Biz cavab verməli olduq və bizim cavabımız Ermənistan üçün çox həssas idi. Biz qələbədən danışarkən qarşımıza belə bir hədəf qoymamışdıq. Biz onu danışıqlar masasında həll etmək istəyirdik. Lakin biz bunu döyüş meydanında etməyə hər zaman hazır idik və bunu da edirik".

Digər bir məlumatda Azərbaycan Prezidentinin erməni mifini necə ifşa etdiyi əksini tapıb: "Ermənilər Gəncə və Bərdə şəhərlərində terror hadisəsi törətməklə xalqı qorxutmağa çalışırdılar, lakin onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər".

Daha bir məlumat isə Ali Baş Komandanın özünün "Tvitter" səhifəsində etdiyi paylaşımla əlaqədardır.

Mətbuat dövlət başçısına istinadən müzəffər ordumuzun daha bir neçə yaşayış məskənini düşmən işğalından azad etməsi barədə oxuculara məlumat çatdırır.

Həmin materiallar oxuculara Azərbaycan, rus, ingilis və gürcü dillərində çatdırılır.



Özbəkistan portalları Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsi və müharibə mövzusu ilə bağlı digər məqalələr verib.

"daryo.uz" portalı yazır ki, dövlət başçısı İlham Əliyev müsahibədə 30 ilə yaxın davam edən danışıqların heç bir nəticə verməməsi, Ermənistanın son təxribatları, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində aparılan müharibə, torpaqlarımızın böyük bir hissəsinin işğalçılardan azad edilməsi və digər məsələlər haqqında məlumat verib.

Dövlət başçısı deyib: "Biz artıq dörd rayonu birtərəfli qaydada azad etmişik. Buna görə də o deməlidir ki, qoşunlarını Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında qalmış ərazilərindən geri çəkəcəkdir. Lakin o, bəyanat vermir. Bu onu göstərir ki, o, müharibənin dayanmasını istəmir".

"orol24.uz" portalı bildirir ki, "Human Rights Watch" təşkilatı Ermənistanı qadağan olunmuş kasset bombalarından istifadə etməkdə günahlandırıb. Yazıda bildirilir ki, Bərdə şəhərinə atılan "Smerç" kasset bombası nəticəsində 21 adam həlak olub, 70-dən artıq insan yaralanıb, şəhərdə xeyli dağıntı var.



Ukraynanın "UA-Perşiy" Milli İctimai Televiziya Kanalı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tərtər şəhərinə raket hücumu barədə xüsusi reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, telekanalın çəkiliş qrupu reportajda xüsusilə Ermənistan tərəfindən Tərtərdə Azərbaycanın dinc sakinlərinə qarşı fosforlu mərmilərdən istifadə edildiyini vurğulayıb. Tərtərdə partlamayan fosforlu mərmilərin Azərbaycan tərəfindən zərərsizləşdirildiyi diqqətə çatdırılıb.

Telekanalın jurnalisti vurğulayıb ki, Ermənistan bununla beynəlxalq konvensiyalarda qadağan olunmuş silahlardan istifadə edib.

Reportajda müharibə ilə əlaqədar Tərtər rayonundakı vəziyyətdən də söz açılıb.




"Voltairenet" portalında "Nikol Paşinyan müxalifəti neytrallaşdırır" sərlövhəli yazı dərc olunub.

AZƏRTAC xəbər verir ki, yazıda 2018-ci ilin mayında Corc Soros fondunun dəstəyi ilə təşkil olunan dövlət çevrilişi nəticəsində hakimiyyətə gələn Ermənistanın baş naziri Nikol Paşinyanın müharibədən istifadə edərək müxalifəti neytrallaşdırdığı bildirilir.

Qeyd olunur ki, o, bu məqsədlə Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru (2018-2019) və müxalifətin lideri general Artur Vanetsyanın cəbhədə həbs olunması əmrini verib.

Vurğulanır ki, Corc Sorosun tərəfdarları onu xaricə casusluq etməkdə günahlandırırlar.



Özbəkistanın "fikr.uz" portalı "Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistanın "VoMa" adlı terror təşkilatı yaradılması ilə bağlı məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Baş Prokurorluğunun Dövlət Təhlükəsizliyi Xidmətinin materiallarına əsasən işğal olunmuş ərazilərdə "VoMa" adlı terror təşkilatı yaratmaları ilə əlaqədar Ermənistan vətəndaşı Vladimir Vartanov və digərləri haqqında cinayət işi açdığı bildirilib.

Yazıda qeyd olunur ki, terror təşkilatı 2014-cü ildə Azərbaycanda və işğal edilmiş ərazilərdə terror aktları törədilməsi məqsədilə yaradılıb. Təşkilata Ermənistandan kənarda yaşayan erməni mənşəli şəxslər, həmçinin ASALA, PKK və digər terror təşkilatlarının nümayəndələri cəlb olunub və o, rəsmən "VoMa" batalyonu adlandırılıb.

Müəyyən edilib ki, terror təşkilatının üzvləri Ermənistan ordusunun silah-sursatından istifadə edərək Azərbaycanın cəbhə xəttinə yaxın şəhər və rayonlarında dinc əhaliyə qarşı terror aktları törədib.



Misirin geniş oxucu kütləsinə malik olan "Gomhuriaonline" informasiya portalı ordumuzun torpaqları işğaldan azad etməsi üzrə əməliyyatın gedişi haqqında Azərbaycan Müdafiə Nazirliyinin son məlumatlarını yayıb.

AZƏRTAC xəbər verir ki, portalın xəbərində cəbhənin Xocavənd istiqamətindəki döyüşlərdə Ermənistan silahlı qüvvələrinin 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının mövqelərindəki yeraltı sığınacaqların atəşə tutulması nəticəsində xeyli sayda şəxsi heyətin, o cümlədən motoatıcı alayın komandiri polkovnik Qor İşxanyanın məhv edilməsi, Ağdərə istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının müdafiə zolağında düşmənin bir neçə tankının sıradan çıxarılması barədə məlumatlar yer alıb.

Portalın xəbərində həmçinin cəbhənin cənub sahəsində Azərbaycan Ordusunun guya üç tankının vurulması barədə Ermənistan tərəfinin yaydığı məlumatın tamamilə yalan olması barədə Müdafiə Nazirliyinin bəyanatı yayılıb.




Almaniyanın "Tekk.tv" portalında "Fransanın faşist qrupunun lideri Ermənistan üçün müharibə aparmağa and içir" adlı məqalə dərc olunub.

Məqalədə vurğulanır ki, Fransanın neonasist sağçı qrupunun (ZVP) lideri Mark de Kakkere-Valmenir azərbaycanlılara qarşı vuruşmaq üçün Dağlıq Qarabağdakı erməni əsgərlərinə qoşulub. Həmin şəxs hərbi formada əlində silahla sosial mediada şəkil paylaşıb. Onun müharibədə iştirakı PKK terrorçu təşkilatının və sağçı ekstremist Avropa qruplaşmalarının nümayəndələrinin də Ermənistan tərəfində vuruşmağa başladıqlarını deməyə əsas verir. Azərbaycanın silahlı qüvvələri tərəfindən əsir götürülmüş A.Mikaelyan adlı erməni əsgəri Dağlıq Qarabağda erməni əsgərlərinin sırasında PKK terrorçularının da vuruşduqlarını etiraf edib.



Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Avropa Komissiyasının videoformatda keçirilən 130-cu nazirlər toplantısında çıxış edib.

AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, Mövlud Çavuşoğlu Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) siyasi məqsədlər üçün istifadə edilməsinin yolverilməzliyini bildirib. Nazir deyib: "Azərbaycanın ərazi bütövlüyü üçün hər birinizi "amma, əgər" demədən səsinizi çıxarmağa çağırıram. İkili standartlar olmamalıdır. Gürcüstan və Ukraynanın ərazi bütövlüyü və suverenliyini necə müdafiə ediriksə, Azərbaycanın da haqlarını eyni qaydada qorumalıyıq. Azərbaycan, sadəcə olaraq, beynəlxalq səviyyədə tanınmış ərazilərinə nəzarəti bərpa etmək istəyir".

Azərbaycanın fəaliyyətinin BMT Təhlükəsizlik Şurası, ATƏT və Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qərar və qətnamələrinə, xüsusilə də AŞ PA-nın 2005-ci ildə qəbul etdiyi 1416 nömrəli qətnaməyə uyğun olduğunu diqqətə çatdıran türkiyəli nazir deyib ki, Ermənistan işğala son qoymalı, mülki azərbaycanlı əhalini hədəfə aldığına və atəşkəs razılaşmasını pozaraq hücumlar etdiyinə görə məsuliyyət daşımalıdır.

Türkiyənin terrorizmin bütün təzahürlərinə və zorakılığa qarşı olduğunu ifadə edən Mövlud Çavuşoğlu deyib: "Terrorizmdən ən çox əziyyət çəkən ölkə olaraq Türkiyə Fransada və Avstriyada günahsız insanların ölümünə səbəb olan terror aktlarını qınayır. Eyni zamanda, aralarında müəllimlərin də olduğu minlərlə mülki vətəndaşımızı qətlə yetirən PKK terroruna qarşı da eyni həmrəyliyi gözləyirik".



Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir. Biz bir millət, iki dövlətik. Haqlı mübarizəsində Azərbaycana dəstək vermək mənəvi borcumuzdur. Haqq və ədalət Azərbaycan Ordusunun şanlı mübarizəsinə əlavə güc verir. İnşallah, şanlı Azərbaycan Ordusu Qarabağı, işğal altındakı torpaqları ən qısa zamanda tam şəkildə yağıdan azad edəcək. Bu, hər birimizin intizarla gözlədiyi hadisədir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ankara Musiqi və İncəsənət Universitetinin rektoru, professor Erol Parlak ifadə edib.

Rəhbərlik etdiyi ali təhsil ocağının hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdıran rektor deyib: "Tarixdə baş verənlər nəsillər üçün ibrətdir. Türkiyənin hər yerində Azərbaycana böyük mənəvi dəstək göstərilir. Biz də dünənimizə, bugünümüzə və gələcəyimizə işıq saçan bu prosesə özünəməxsus şəkildə töhfə verdik. Azərbaycan və Türkiyənin dövlət bayraqlarını yağlı boya ilə kətan üzərinə çəkib birləşdirməklə birliyimizi tərənnüm edən canlı bir formul ortaya qoyduq".

Xatırladaq ki, diplomatların, beynəlxalq təşkilatların rəhbərlərinin, görkəmli ziyalıların iştirakı ilə Ankara Musiqi və İncəsənət Universitetində oktyabrın 3-də Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini qınamaq, eləcə də müzəffər ordumuza dəstək məqsədilə bədii proqram təşkil olunub.



Bütün qəlbimizlə Azərbaycanın yanındayıq. Azərbaycanın haqlı mübarizəsinə siyasi, mənəvi dəstək vermək borcumuzdur. Ötən günlərdə bütün dünya gördü ki, rəşadətli Azərbaycan Ordusu böyük gücə qadirdir. Azərbaycanın ərazi bütövlüyünün bərpası və yurd-yuvasından didərgin düşən azərbaycanlıların öz evlərinə dönməsi arzumuz, istəyimiz və tələbimizdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sabiq rəhbəri, Ankara Universitetinin rektoru, professor Necdət Ünüvar ifadə edib.

Şanlı Azərbaycan Ordusunun ən qısa zamanda Qarabağı və işğal altındakı digər əraziləri düşməndən azad edəcəyinə əminliyini ifadə edən rektor Necdət Ünüvar deyib: "Bir millət, iki dövlət olmağımız düşüncəmizdə və əməlimizdə reallığı göstərən gerçəklikdir. Qarabağ məsələsində hər zaman Azərbaycanla həmrəy olmuşuq. Ən yaxın zamanda qələbə xəbərləri gözləyirik. Şanlı Azərbaycan Ordusu bu sevinci bizlərə yaşatmaq üçün əzmkar döyüş yolu keçir".



Azərbaycanın Yaponiyadakı səfirliyində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycana qarşı son təcavüzü mövzusunda Yaponiya ictimaiyyətinin məlumatlandırılması məqsədilə növbəti tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Yaponiyada yüksək nüfuza malik olan "The International Friendship Exchange Council" (FEC) təşkilatı üçün təşkil olunan tədbirdə bu təşkilatın prezidenti Ken Matsuzava və digər rəhbər üzvləri iştirak ediblər. Qeyd edək ki, FEC təşkilatının rəhbər heyətinə Yaponiyanın ictimai-siyasi dairələrinin, kütləvi informasiya vasitələrinin nümayəndələri və sabiq diplomatlar daxildirlər.

Tədbirdə çıxış edən səfir Gürsel İsmayılzadə Azərbaycan, onun tarixi, coğrafi mövqeyi, müstəqilliyinin bərpasından sonra əldə edilən uğurlar barədə ətraflı məlumat verib. 1918-1920-ci illərdə müsəlman dünyasında ilk parlament respublikası modeli əsasında qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) çoxpartiyalı demokratik dövlət olduğunu vurğulayıb. 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən ölkəmizin qarşılaşdığı çətinliklərdən bəhs edib. Müasir Azərbaycan Respublikasının bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətçiliyin inkişafı yolunda inamla addımladığını, ölkədə davamlı siyasi-iqtisadi islahatların həyata keçirildiyini vurğulayıb. Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində ölkəmizin son illərdə qazandığı böyük uğurlar barədə ətraflı məlumat verib, o cümlədən iqtisadiyyat, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən və gələcəkdə nəzərdə tutulan müxtəlif layihələr barədə ətraflı danışıb.

1918-1920-ci illərdə mövcud olmuş AXC-nin xəritəsini nümayiş etdirən səfir, keçmiş Sovet İttifaqının hakimiyyəti tərəfindən ölkəmizin tarixi torpaqları olmuş Zəngəzurun və digər ərazilərin Ermənistana verildiyini bildirib. Qeyd edib ki, 1920-ci ildə yaradılan Ermənistan Respublikasının əhalisinin 500 minini azərbaycanlılar təşkil etsə də, Sovet İttifaqı dövründə onlar tədricən buradan ya köçürülüb, ya da qovulublar. 1988-ci ildə başlayan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə danışan diplomat 1991-1994-cü illərdə davam edən döyüşlər, Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri haqqında geniş məlumat verib. Bu xüsusda ermənilərin törətdiyi Xocalı soyqırımından danışıb.

Ermənistanın Azərbaycana qarşı cari il sentyabrın 27-də başlanan son təxribatı haqqında geniş məlumat verən səfir bildirib ki, həmin tarixdə Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini iriçaplı silahlardan atəşə tutub. Vurğulayıb ki, Ermənistan silahlı qüvvələrinin mülki insanların sıx şəkildə yaşadığı yerləri intensiv şəkildə atəşə tutması nəticəsində mülki əhali və hərbi qulluqçular həlak olub və yaralanıb, çoxsaylı evlərə və mülki obyektlərə ciddi ziyan dəyib.

G.İsmayılzadə qeyd edib ki, Ermənistan terrorçu qüvvələrinin məhz mülki əhalinin sıx yaşadığı yerlərə məqsədyönlü atəşləri nəticəsində bugünədək 91 nəfər azərbaycanlı mülki şəxs qətlə yetirilib, iki yüzdən artıq insan yaralanıb, minlərlə yaşayış binası və mülki obyektlər dağıdılıb.

Səfir bildirib ki, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə, sənaye şəhəri olan Mingəçevir, habelə Azərbaycanın digər rayonlarında əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri və mühüm əhəmiyyətli infrastrukturun Ermənistan ərazisindən məqsədyönlü şəkildə raket hücumlarına tutulması hərbi əməliyyatlar zonasını genişləndirmək və münaqişəyə üçüncü ölkələri cəlb etmək məqsədi güdən təxribatdır. Oktyabrın 27-28-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Bərdə rayonuna "Smerç" yaylım atəşli reaktiv sistemdən atılan raketlər nəticəsində 25 nəfər mülki şəxs, o cümlədən azyaşlı uşaq həyatını itirib və aralarında uşaqlar və qadınlar olmaqla 70-dən çox insan ciddi xəsarət alıb.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin iki ölkə arasında münaqişənin həlli istiqamətində fəaliyyəti haqqında məlumat verən səfir BMT-nin Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ildə qəbul etdiyi 4 qətnaməni də xatırladıb. Qeyd edib ki, ATƏT-in Minsk qrupu 28 illik fəaliyyəti nəticəsində münaqişənin həlli istiqamətində heç bir nəzərəçarpacaq addım atmayıb. Qətnamələr Azərbaycanın işğal olunmuş ərazilərindən erməni işğalçı qüvvələrin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etsə də, 27 il ərzində bu qətnamələrin tələbləri yerinə yetirilməyib.

G.İsmayılzadə vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan ordusunun dərhal, tam və qeyd-şərtsiz çıxarılmasına dair tələbləri yerinə yetirmədiyinə görə dünya dövlətləri, o cümlədən Yaponiya tərəfindən təzyiqin göstərilməməsi nəticəsində özünü cəzasız hiss edən Ermənistan yeni təxribatlar törədir.

Çıxışının sonunda Azərbaycan-Yaponiya ikitərəfli münasibətlərinə toxunan səfir qeyd edib ki, ölkələrimiz arasındakı münasibətlər ümumi maraqlar, qarşılıqlı anlaşma və hörmət prinsiplərinə əsaslanır. İki ölkə arasındakı dostluq münasibətləri və iqtisadi əməkdaşlıq davamlı inkişaf edir. Ölkələrimiz enerji sektoru da daxil olmaqla, digər sahələrdə sıx əməkdaşlıq edir. Azərbaycan və Yaponiya arasında qarşılıqlı maraq kəsb edən müxtəlif sahələri əhatə edən sıx əlaqələr mövcuddur.

Tədbirdə çıxış edən FEC təşkilatının prezidenti Ken Matsuzava münaqişə barədə ətraflı məlumata görə minnətdarlığını bildirib. Döyüşlər zamanı həlak olmuş mülki əhali və hərbçilərin ailələrinə başsağlığının çatdırılmasını xahiş edən təşkilatın rəhbəri yaralanmış insanların tezliklə sağalmasını arzuladığını söyləyib.

Azərbaycan-Yaponiya ikitərəfli münasibətlərinin inkişafına səfir G.İsmayılzadənin xüsusi töhfələr verdiyini vurğulayan K.Matsuzava onun bundan sonra da iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün çalışacağına əmin olduğunu bildirib.

Azərbaycan və Yaponiya arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini qeyd edən FEC prezidenti əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən turizm, kənd təsərrüfatı, tibb, nəqliyyat sahələrində genişləndirilməsi üçün ölkələrimizin böyük potensiala malik olduğunu bildirib.




Meksikanın nüfuzlu "El Economista" və "Pulse News Mexico" qəzetlərində Ermənistan-Azərbaycan münaqişəsi və Ermənistanın sentyabrın 27-dən etibarən törətdiyi müharibə cinayətləri barədə məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, ölkəmizin Meksikadakı səfiri Məmməd Talıbovun bu mətbu orqanlara müsahibələri əsasında hazırlanmış yazılarda Dağlıq Qarabağın, bəzi KİV-də qeyd olunduğu kimi, mübahisəli ərazi deyil, Azərbaycanın beynəlxalq qaydada tanınmış və ətraf 7 rayonla birlikdə 30 ilə yaxındır Ermənistan tərəfindən işğal edilmiş ərazisi olduğu diqqətə çatdırılır. Bildirilir ki, bu ərazilərdən 1 milyona yaxın azərbaycanlı qovularaq məcburi köçkünə çevrilib.

Yazılarda BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrin işğal altındakı ərazilərin dərhal və qeyd-şərtsiz azad olunmasını tələb etdiyi, lakin bu günədək Ermənistanın bu sənədlərə məhəl qoymadığı vurğulanır. Münaqişənin həlli üzrə Minsk qrupu çərçivəsində aparılan danışıqlarda da Ermənistanın davamlı şəkildə qeyri-konstruktiv mövqe göstərməsi səbəbindən heç bir nəticə əldə edilmədiyi bildirilir.

"Ermənistanın hərbi-siyasi rəhbərliyinin, xüsusilə də baş nazir Paşinyanın son iki il ərzindəki daha aqressiv yanaşması, Dağlıq Qarabağ və ətraf rayonların Ermənistana aid olduğuna dair bəyanatları, habelə işğal altındakı əraziləri birdəfəlik ilhaq etmək, hətta mümkün olarsa, yeni ərazilər zəbt etmək məqsədinin açıq-aydın ifadə olunduğu açıqlamaları səbəbindən danışıqlar prosesinin tamamilə pozulub", - deyə məqalələrdə vurğulanır. Həmçinin sentyabrın 27-dən başlayan döyüşlər zamanı Ermənistanın təkcə Azərbaycan Ordusunun hərbi mövqelərini deyil, həm də mülki azərbaycanlı əhalini hədəfə aldığı bildirilir.

Eyni zamanda, yazılarda qeyd olunur ki, Azərbaycan silahlı qüvvələri mülki vətəndaşların təhlükəsizliyini təmin etmək və işğalda olan ərazilərimizi azad etmək məqsədilə əks-hücum əməliyyatları aparır, bunu birmənalı şəkildə öz suveren ərazilərimiz çərçivəsində həyata keçirir.

Ermənistanın münaqişəyə etnik və dini don geyindirmək cəhdləri göstərdiyi, habelə Türkiyənin münaqişədə hərbi iştirakı ilə bağlı yaydığı xəbərlərin saxta olduğu deyilir.

Bildirilir ki, regionda davamlı sülh və təhlükəsizliyə başlıca təhdid Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazilərində mövcudluğudur.

Həmçinin çoxmillətli ölkə olan Azərbaycanın Dağlıq Qarabağda yaşayan mülki ermənilərlə heç bir problem yaşamadığı, hazırda paytaxt Bakıda 30 minə qədər erməninin yaşadığı, Ermənistan ordusunun işğal olunmuş əraziləri tərk etməsindən sonra hər iki xalqın nümayəndələrinin birgə yaşaya biləcəyi oxucuların diqqətinə çatdırılır.




Moldovanın "Tribuna", NOİ.MD, AVA.MD, İPN.MD və "Timbul" informasiya portalları Azərbaycanın bu ölkədəki səfiri Qüdsi Osmanovun Ermənistanın işğal etdiyi ərazilərimizdə mədəni-dini abidələrin dağıdılmasına dair rumın və rus dillərində məqaləsini yayıblar.

AZƏRTAC xəbər verir ki, "Azərbaycanın Qarabağdakı məscidlərində 30 ildir donuzlar saxlanılır" sərlövhəli məqalədə səfir işğal altındakı ərazilərimizdə olan 67 məsciddən 63-nün tam dağıdıldığını, 4-nün isə qismən məhv edildiyini vurğulayıb.

Q.Osmanov qeyd edib ki, yalnız beynəlxalq təşkilatların təzyiqi nəticəsində Ağdamdakı Cümə məscidinin, Aşağı və Yuxarı Gövhərağa məscidlərinin, Şuşadakı Saatlı məscidinin divarları qorunub saxlanılıb. Buna baxmayaraq, bu gün ermənilərin ədəbsizliyinin və azərbaycanlılara nifrətinin təcəssümü olaraq onların içərisində donuz və mal-qara saxlanılır.

"Eyni zamanda, işğal olunmuş ərazilərdəki çay, göl, kənd və şəhər adları erməniləşdirilib. Erməni vandalizminin əli ilə Şuşada və digər rayonlarda Pənahəli xan tərəfindən tikdirilmiş qala və istehkamlar dağıdılıb, Natəvanın evi qəzalı vəziyyətə düşüb. İşğalçılar abidələri erməni memarlığının nümunələri kimi təqdim etmək məqsədilə xarici görünüşünü dəyişdirib, qədim dini tikililəri dağıdıb. Onlar Ağdərə, Laçın və Kəlbəcər rayonlarında alban tikililərinə qarşı da eyni vəhşilikləri ediblər. Erməni vandalları tərəfindən Azərbaycanın müasir milli heykəltəraşlığının bəhrələndiyi Laçın və Kəlbəcər rayonlarında bir çox qədim heykəllər, daş qoç fiqurlar və atlar məhv edilib", - deyə Q.Osmanov məqaləsində yazıb.

Səfir qeyd edib ki, Ermənistan tərəfindən mədəni-dini abidələrimizin məhv edilməsi "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında" 1972-ci il UNESCO Konvensiyasının tələblərinə birbaşa ziddir.

"Ermənistanın Azərbaycan xalqının mədəni irsini məhv etməyə və saxtalaşdırmağa yönəlmiş fəaliyyəti bütün bəşəri mədəniyyətə təcavüzdür. Nəhayət erməni vandalları bu hərəkətlərinə görə cavab verməli, cəzalandırılmalı və dünya ictimaiyyəti bu faktı diqqətdən kənarda qoymamalıdır", - deyə səfir əlavə edib.